Azərbaycan Texniki Universitetinin

# Tələbə

# SİYASƏTİ

Bakı 2023

## Ön söz

Azərbaycan Texniki Universiteti (AzTU) Azərbaycan Respublikasının texniki təhsil sahəsində aparıcı, intellektual və kadr potensialı yüksək universitetlərindən biridir. Əsası 1950-ci ildə qoyulan universitetdə tədris azərbaycan, rus, ingilis və alman dillərində aparılır. 7 fakültədə bakalavriat səviyyəsində 36, magistratura səviyyəsində 37 ixtisas üzrə 10000-dən çox tələbə təhsil alır. Dünyanın 10 ölkəsindən 129-a yaxın əcnəbi tələbəsi var. Universitetin nəzdində 2 kollec: Bakı Texniki Kolleci, Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci eyni zamanda 7 institut, AzTU Beynəlxalq Biznes Məktəbi, tərkibində 2,5 milyondan çox kitab fondu olan elmi kitabxana, Yaponiyada istehsal olunmuş müasir tipli rizoqraf və digər çap avadanlıqları olan nəşriyyat, 6 muzey, informasiya və tərcümə mərkəzi, idman-sağlamlıq kompleksi, hərbi kafedra, poliklinika fəaliyyət göstərir.

1930-cu ildə Azərbaycan Politexnik İnstitutu “İttifaq Neft”ə tabe olduğundan Azərbaycan Neft İnstitutu adlandırılıb. Azərbaycan Politexnik İnstitutunun tərkibində olan Kənd təsərrüfatı” və İnşaat-mühəndis fakültələrinin bazasında 1929-cu ildə Gəncə şəhərində Kənd təssərufatı, 1932-ci ildə isə Bakı şəhərində İnşaat institutları yaradılıb.

1934-cü ilin yanvar ayında Azərbaycan Neft İnstitutu ilə İnşaat İnstitutu birləşdirilərək Azərbaycan Sənaye İnstitutu adlandırılıb. Azərbaycan Sənaye İnstitutunun tərkibində Memarlıq-inşaat, Neft-mexanika, Energetika, Neft-mədən, Dəmir yolu və Mühəndis-iqtisadiyyat fakültələri olub.

Azərbaycan Sənaye İnstitutunda əsasən neft sahəsi üçün mühəndis kadrların hazırlanması, İkinci Dünya Müharibəsindən sonra xalq təsərrüfatının bütün sahələrinin bərpası, inkişafı, yeni sənaye müəssisələrinin açılmasının vacibliyi, müxtəlif sahələr üzrə mühəndis kadrlarının hazırlanmasına olan

ehtiyac və Azərbaycanda müəyyən intellektual texniki potensialın olması Azərbaycan Politexnik İnstitutunun bərpa olunmasına imkan verdi.

Azərbaycan Respublikasının texniki təhsil sahəsində aparıcı universitetlərindən biri olan indiki Azərbaycan Texniki Universiteti (AzTU) 1950-ci ilin noyabrında Bakı şəhərində tərkibində Mexanika, İnşaat, Dəmir yolu və Hidromeliorasiya fakültələri olmaqla Azərbaycan Politexnik İnstitutu (AzPİ) adı altında yenidən yaradılıb.

Tələbə siyasəti Azərbaycan Texniki Universitetinin strategiyasının əsas komponentlərindən biridir.. Universitet bütün tələbələri üçün bilik və bacarıqlara bərabər imkanlar yaradır. Universitet tələbələrinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının inkişafı istiqamətində istifadə etmək, yeni nəsildə fəal vətəndaş mövqeyi formalaşdırmaqdadır.

## Giriş

Bu gün Azərbaycan gənci fiziki və mənəvi cəhətdən sağlam, savadlı, mütərəqqi və müstəqil düşünmə qabiliyyətinə malikdir. Dövlətçiliyimizin daha da möhkəmləndirilməsində, bütün sahələrin inkişafında intellektual gəncliyin rolu danılmazdır. Məlumdur ki, ölkəmizdə gənclər siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. 1997-ci ildə Ulu Öndərin təşəbbüsü ilə 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi və "Dövlət gənclər siyasəti haqqında" Fərman və genişmiqyaslı fəaliyyət proqramının təsdiq olunması bu diqqətin bariz nümunəsi idi.

Ümummili Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni müstəviyə qədəm qoymuşdur. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci elm, mədəniyyət, incəsənət, idman və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir. Prezident İlham Əliyev gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2005-ci il avqustun 30-da “Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)”, 2017-ci il sentyabrın 15-də "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı və 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə “2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf Strategiyası”nı təsdiq etdi. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2020-ci il Azərbyacanda “Könüllülər ili” elan edilmişdir. Bu gün tələbələr arasında könüllülük hərəkatının inkişafına, onların ictimai həyatda fəallığının artırılmasına, hərtərəfli stimullaşdırılmasına yönəlmiş dövlət dəstəyi tələbə-gənclərin bu sahəyə marağını davamlı olaraq yüksəltməkdədir. Azərbaycan Texniki Universiteti də bu gün dövlətin uğurla həyata keçirdiyi gənclər siyasətinin gerçəkləşməsinə, könüllülük fəaliyyətinin genişlənməsinə öz töhfəsini verməkdədir.

AzTU-nun tələbərinin bir şəhsiyyət kimi formalaşmaları, bilikli və bacarıqlı kadrlar kimi yetişmələri, milli ruhda tərbiyə almaları, istedad və qabiliyyətlərinin üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili istiqamətində universitetdə mühüm layihələr həyata keçirilir.

Ölkəmiz üçün yüksəkixtisaslı mühəndis kadrları hazırlamaq 10 mindən artıq tələbəsi olan Azərbaycan Texniki Universitetinin əsas hədəflərdən biridir.

## Məqsəd

Tələbələrin ölkəmizi beynəlxalq arenalarda müxtəlif istiqamətlər üzrə təmsil etməsi; Fiziki və mənəvi cəhətdən sağlam, savadlı, mütərəqqi və müstəqil düşünə bilən gəncliyə malik olmaq; Tələbələr vasitəsilə dövlətçiliyimizin daha da möhkəmləndirilməsində intellektual potensialın artırılması.

## SİYASƏTİN ƏHATƏ DAİRƏSİ

a. Təhlükəsiz təhsil mühiti
b. Tələbələr üçün bərabər imkanlar
c. Şikayətlər, intizam tədbirləri
d. Peşəkar inkişaf
e. Tələbələrin hərtərəfli inkişafı üçün şəraitin yaradılması
f. Əmək bazarının tələblərinə cavab verən rəqabətədavamlı gənc mühəndislərin hazırlanması

## SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

1. AzTU-da bütün tələbələr öz potensiallarını tam şəkildə reallaşdıra bilərlər, onların dini-irqi, cinsi mənsubiyyəti təlim-tədrsi prosesinə heç bir təsir göstərmir.
2. Universitetdə tələbələrin öz ixtisas biliklərini təkmilləşdirmək üçün müasir labaratoriyalar mövcuddur.
3. Bütün tələbələrin bir-birinə eyni dəyər vermələrinə və hər cəhətdən bərabər münasibət göstərmələrinə universitetin müvafiq təşkilatları tərəfindən nəzarət olunur.
4. Tələbələrin kampus həyatında onların hörmət, şəxsi təhlükəsizlik və iqtisadi təhlükəsizlik hüquqlarının qorunması təmin olunur.
5. Tələbələrin elm, texnika, mədəniyyət, incəsənət sahəsindəki bacarıqlarını və təşəbbüskarlığını stimullaşdıran tədbirlər həyata keçirilir.
6. Əlilliyi olan tələbələrin sosial müdafiəsini gücləndirmək, onların əmək bazarının tələblərinə uyğun bir mütəxəssis kimi formalaşdırmaq üçün müvafiq tədbirlər həyata keçirilir.
7. Universitet tələbələrin müasir bilik və bacarıqlarının (xarici dil bilikləri, IT bacarıqları, sahibkarlıq və startap, job application, project management, networking, interviewing, və s.) təkmilləşdirilməsinə əlavə dəstək göstərir.

8. Tələbələrin sağlam həyat tərzi keçirməsi, fiziki aktivlik səviyyəsinin artırılması (idman yarışları, narkomaniya, tütün, alkoqol və digər psixoaktiv maddələrin mənfi təsiri, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikası, sağlam qidalanma) ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi, biliklərinin artırılması və davranışlarının təkmilləşdirilməsi ilə bağlı mütəmadi olaraq tədbirlər həyata keçirilir.
9. Universitet tələbələrdə düzgün münasibətin və davranışın, sosial məsuliyyətin, empatiya və həssaslığın, bərabərhüquqlu münasibətlərin formalaşmasına diqqət yetirir.
10. AzTU tələbələr arasında ixtisas və peşə seçimi, əmək bazarı və məşğulluq haqqında məlumatlılıq səviyyəsini artırmaq, onların gələcək karyeralarını formalaşdırmaq üçün ixtisaslaşmış mütəxəssislər vasitəsilə karyera məsləhət xidmətləri inkişaf edir.
11. AzTU bütün tələbələrinə şəxsə hörmət və təhlükəsizlik hüquqlarını başa düşməyə kömək edir. Universitetdə təhlükəsiz mühit mövcuddur.
12. Tələbələrlə bağlı qərarların verilməsində universitetin tələbə təşkilatlarının nümayəndələri iştirak edir.

## Xülasə

Tələbə siyasətində müəyyən edilmiş prinsiplər Azərbaycan Texniki Universitetinin tələbələrinin müasir bilik və bacarıqlarının təkmilləşdirilməsi, sağlam həyat tərzi keçirməsi, fiziki aktivlik səviyyəsinin artırılması, təhlükəsiz və bərabər hüquqlu təhsil almalarına dəstək üçün nəzərdə tutulmuşdur. Biz tələbələrin hüquqlarına hörmət edib, peşəyönümlü inkişaf etmələrinə dəstək göstərəcəyik.